# Ağsu diqqətəlayiq uğurlara imza atır

❒ ***Bəlkə də ilk sətirlərdə qələmə aldığım bu qeydlərə görə məni qınayan və ya etiraz edən olacaq. Demək istəyirəm ki, əvvəllər rayonlardan qəzet materialı hazırlayanda, ilk növbədə, əkin, biçin, bağçılıq, heyvandarlıq kimi aqrar sahələr, bir də təhsil, səhiyyə və digər xidmət sahələri ilə bağlı məsələlər gündəliyə gətirilirdi. Vəssalam. İndi isə vəziyyət tamamilə başqadır. Ölkədə gedən sosial-iqtisadi inkişaf və ictimai-siyasi proseslər bölgə müxbirlərinə daha çox mövzu verir. Çünki indi elə bir rayonumuz yoxdur ki, orada paytaxtda keçirilən tədbirlərin əks-sədası ilə qarşılaşmayaq. Bu fikirlər Ağsu rayonuna da köklü şəkildə şamil edilir.***

Bir neçə gün əvvəl Ağsuda Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, AMEA-nın Dilçilik İnstitutunun və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə 16 Noyabr – Beynəlxalq Tolerantlıq Gününə həsr olunan yığıncaqda iştirak etdik. Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev Beynəlxalq Tolerantlıq Gününün 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis olunduğunu diqqətə çatdıraraq vurğuladı ki, Azərbaycan dünyada bütün dinlərin nümayəndələrinin,



azsaylı xalqların bir ailə kimi yaşadığı nadir ölkələrdəndir. Respublikamız dünyada tolerantlıq örnəyi kimi tanınır. Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu çıxışında tolerantlığın Azərbaycan xalqının ruhunda olduğunu qeyd etdi, "Kitabi-Dədə Qorqud"da, İmadəddin Nəsiminin, Xaqaninin və digər dahi şəxsiyyətlərin yaradıcılığında bu ruhun aydın ifadəsini konkret faktlarla diqqətə çatdırdı. Sonra iştirakçılara Kamal Abdullayevin təşəbbüsü və redaktorluğu ilə nəşr olunan "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı təqdim edildi. Yəni, istənilən rayonumuz təkcə respublikamızda deyil, eləcə də dünyada gedən proseslərin bir hissəsinə çevrilir.

Elə 9 Noyabr – Dövlət Bayrağı Günü də Ağsuda əsl bayram abhavası ilə qeyd edildi. Noyabrın 8-də Heydər Əliyev Mərkəzində keçirilən təntənəli yığıncaqda rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilən, 1990-cı il noyabrın 18-də ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında yenidən qaldırılan üçrəngli bayrağımızın qüdrətimiz, milli qürurumuz olduğunu iftixarla qeyd etdi. Məruzə və çıxışlarda yenidən ucalan, türk mədəniyyətinin, müsəlman sivilizasiyasının və Azərbaycan demokratiyasının dəyərlərinin simvolu olan milli bayrağımızın bundan sonra əsrlər boyu dalğalanacağına böyük inam, əminlik ifadə olundu. Vurğulandı ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun ən qüdrətli ölkəsinə çevrilən Azərbaycanın milli bayrağı dünyanın ən mötəbər bayraqlarından biridir.

Yeri gəlmişkən, bu gün bütün şəhər və rayonlarımızın ən görkəmli yerində Bayraq meydanı yaradılıb və üçrəngli bu dövlət atributumuz daim hamıdan və hər şeydən ucadadır. Ancaq mənə elə gəlir ki, "Bayraq meydanı kompleksi" üçün ən münasib yerlər Ağsudadır və o yerlərin də ən yaxşısı məhz bu məqsədlə seçilib. Nə üçün ən yaxşı yer deyirəm, çünki bu rayonun bir tərəfi dağ, bir tərəfi aran olduğuna görə adama elə gəlir ki, elə



təbiətin özü bu relyefi məhz ucaldılan bayrağın hər yerdən görünməsi xatirinə xəlq edib. Bu fikirlər hər il müxtəlif tədbirlər münasibətilə həmin kompleksə toplaşan adamlar tərəfindən dəfələrlə səsləndirilsə də, şair dostum Sabir Sarvandan eşitdiyim "Allah Ağsuda nədən ötrü ən gözəl imkan yaratmayıb ki, bayraq üçün də yaratmasın?" – sualı heç zaman yadımdan çıxmır.

Sabir Sarvan yadıma düşmüşkən, bir məsələni də qeyd edim. Çünki Ağsuda şeir, poeziya, ədəbiyyat və kitabla bağlı istənilən tədbir bizə Sabirin şeirlərini xatırladır. Qərəz, Ağsu rayon mərkəzi kitabxanasında "Açıq kitabxana" layihəsi çərçivəsində keçirilən poeziya gecəsində çıxış edənlər klassik və müasir Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Səməd Vurğun, M.Şəhriyar, Bəxtiyar Vahabzadə və başqaları, habelə dünya poeziya aləminin tanınan nümayəndələri, onların həyat və yaradıcılığı barədə danışıblar. Ən çox yaddaqalan məqam isə yeni şeir kitabları çap olunmuş yerli şairlər Mətləb Məmmədoğlu və Günel Şıxaliyevanın sevinci, şeir həvəskarları Əlsahab Kərimov, Səftər Əliyev, Ağbəniz Şərifova, Əfsanə Hüseynli, Rəvan Əliyevanın oxuduğu şeirlər olub. Şəxsən mən o şairlərin yeni kitabının işıq üzü görməsinə çox sevindim. Çünki onlar hələ Ağsu dağlarının yamacıboyu axan, səsi və suyu hər yerə çatmayan kiçik dağ çaylarıdır. Onlar Kür və Araza, yəni böyük ədəbiyyata qovuşmaq üçün hələ çox yol gedəcəklər. Uğurlar olsun.

Fikrimcə, rayondakı sosial-iqtisadi inkişafın miqyasını göstərməkdən ötrü qələmə aldığımız, çoxsaylı fakt və rəqəmlərlə zəngin olan qəzet materialının əvvəli üçün bu qədər giriş kifayətdir. Sosial-iqtisadi istiqamətli faktlara keçmək vaxtıdır. Çünki haqqında söz açdığımız bütün faktların ərsəyə gəlməsində iqtisadi imkanların rolu danılmazdır. Onu da qeyd edək ki, bu rayonun son illər formalaşmış iqtisadiyyatında özəl sektorun xüsusi çəkisi vardır. Yeri gəlmişkən, ölkə mətbuatının bir neçə gün əvvəl yaydığı məlumatda bildirilirdi ki, bu gün Cənubi Qafqazın ən böyük istehsal müəssisələrindən birinə çevrilən "Az-Granata" Məhdud Məsuliyyətli Cəmiyyətin yaradılmasının 5 illiyi qeyd olunub. Qeyd edilib ki, MMC-də istehsal edilən məhsullar əsasən Almaniya, ABŞ, Çin, Yaponiya, Polşa, Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə ixrac olunur. Ən müasir texnoloji avadanlıqlarla təchiz edilən zavod mövsüm ərzində 10 min ton meyvə və 5 min ton üzüm qəbulu, saatda 12 ton meyvə şirəsi istehsalı gücündədir. İllik istehsal gücü isə 100 milyon qablaşdırmadır.

Zavodda 2013-cü ildən sənaye üsulu ilə Azərbaycanın qədim spirtsiz içkisi olan "Abqora" (kal üzüm şirəsi və ya qora suyu) istehsalına başlanılıb. Müəssisənin Şotlandiya texnologiyasına uyğun hazırlanan "Whisky", meyvə və giləmeyvə likör şərabları, Azərbaycanda ilk dəfə olaraq qazlaşdırılmış narşərabı, "Badikubə" muskat rakiyası, keçi südü əsasında istehsal edilən spirtli içkilər, şirə və şərab məhsulları nəinki respublikamızda, xarici bazarlarda da tanınır.

Hazırda "Az-Granata" nın 400 hektar üzüm plantasiyası, 300 hektar nar bağı var. MMC-də markalı və kolleksiya şərablarının istehsalı istiqamətində də işlər görülür. Bunun üçün 12 hektar ərazisi olan istehsal müəssisəsində yeni şərab sexi inşa edilir. İki yüz əlli nəfərin çalışdığı zavodun keçdiyi beş illik uğurlu yol oktyabrın 29-da çoxsaylı qonaqların, tanınmış musiqiçilərin iştirakı ilə təntənəli surətdə qeyd olunub.

Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyevlə söhbətimizdə də sosial-iqtisadi inkişafın bütün istiqamətləri barədə söz açdıq. Ənvər müəllim qeyd etdi ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası prosesində də yeni iş yerlərinin açılması, tikinti, quruculuq və abadlıq məsələləri diqqət mərkəzində saxlanılıb, sosial problemlərin həllinə qayğı göstərilib, yollar, küçə və meydanlar asfaltlaşdırılıb və abadlaşdırılıb. Əhalinin və iqtisadiyyatın bütün sahələrinin elektrik enerjisi və təbii qaz təminatının yaxşılaşdırılması, nəqliyyat infrastrukturunun tikintisi və əsaslı təmiri istiqamətində kifayət qədər işlər görülüb. İndi bu istiqamətdə müvafiq tədbirlər davam etdirilir.

Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı barədə danışan həmsöhbətim dedi ki, 2015-ci ildə 2016-cı ilin məhsulu üçün 35 min 198 hektar sahədə payızlıq taxıl (15 min 768 hektarı buğda, 19 min 430 hektarı arpa olmaqla) əkilib və hektardan orta məhsuldarlıq 30,1 sentner olmaqla 105 min 950 ton məhsul əldə olunub. "Süsən Aqro" MMC-nin taxılçılıq sahəsində uğurları daha sevindirici olub. Belə ki, cəmiyyət tərəfindən elm və texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yüksək məhsul istehsalına gətirib çıxarıb. "Süsən Aqro" MMC 1200 hektar taxıl sahəsindən 7206 ton məhsul əldə etməklə orta hesabla hər hektardan 60 sentner məhsul əldə edib.

Bundan başqa, rayon iqtisadiyyatında əsas sahələrdən olan pambıqçılığın inkişafı, daha doğrusu, keçmiş uğurların təkrarlanması istiqamətində zəruri addımların hamısı atılır. Məsələn, bu il 1092 hektar ərazidə əkilmiş pambıq sahələrindən 300 tondan artıq məhsul yığılıb. Təbii ki, hələ yığım davam edir. Ənvər müəllim dedi ki, növbəti mövsüm üçün 2500 hektar sahədə pambıq əkini planlaşdırılır. Bu yerdə bir faktı da xatırladım. Həmsöhbətimin özü yada salmasa da, mən bilirəm ki, Ənvər Seyidəliyev pambıq əkininin və istehsalının artırılması üçün həyata keçirilən bütün tədbirlərə şəxsən rəhbərlik edir. Elə bir həftə olmur ki, rayon rəhbəri iki-üç dəfə pambıq sahələrinə çıxmasın.

Zamanın tələbinə uyğun olaraq rayonda buğda və arpa ilə yanaşı, çəltik bitkisi də əkilir və kifayət qədər yaxşı məhsul götürülür. Buğda və çəltik istehsalçılarının maddi marağının artırılması, buğda və çəltik istehsalının stimullaşdırılması məqsədilə dövlət büdcəsinin vəsaiti hesabına dövlət yardımının verilməsi təmin edilib. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə dövlət maliyyə yardımının verilməsi üçün müvafiq sənədlər hazırlanaraq respublika komissiyasına təqdim edilib.

Tikinti, abadlıq-quruculuq işləri də daim diqqət mərkəzindədir. Bu il Ağsu şəhərində bir sıra keçici obyektlərdə tikinti-quraşdırma işləri görülüb. Şəhərin M.Ə.Rəsulzadə küçəsində kənd təsərrüfatı idarəsi üçün inzibati bina, "Az – Qranata" MMC üçün yeni süzmə sexi və soyuducu anbar, şəhərin kanalizasiya sisteminin təmizləmə qurğusu tikintisinin, 140 yerlik "Qərənfil" və 1 saylı uşaq bağçalarnın əsaslı təmiri, Qaradağ və Qaravəlli kəndlərində modul tipli sutəmizləyici qurğuların tikintisi, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 10 ədəd, hər biri 3 otaqdan ibarət fərdi yaşayış evlərində tikinti-quraşdırma işləri davam etdirilir. Şəhərin müxtəlif məhəllələrində tikintisi yarımçıq qalmış sahibkar obyektlərinin başa çatdırılması, binaların fasad hissələrinin müasir tələblərə uyğun üzləndirilməsi, çoxmənzilli yaşayış binalarında təmir-bərpa işləri aparılıb.





Öyrəndik ki, rayonda yeni sənaye zonası yaradılması, çoxmənzilli evlərin tikilməsi, bir çox kəndlərdə modul tipli su təmizləyici qurğuların tikilməsi üçün layihələrin hazırlanması və həyata keçirilməsi diqqətdən yayınmayıb.

Xidmət müəssisələrinin fəaliyyəti getdikcə daha da müasirləşdirilir. Məsələn, Ağsu Rayon Telekommunikasiya Qovşağının mərkəzi və kənd EATS-lərində olan boş tutumların istifadəyə verilməsi, yeni salınmış yaşayış məntəqələrinin telefonlaşdırılması, xətt şəbəkəsinin tikintisi və genişləndirilməsi istiqamətində layihələrin icrası həyata keçirilir. Belə ki, şəhərin 3-cü məhəllə və yeni yaşayış massivinin telefonlaşması ilə əlaqədar olaraq müxtəlif tipli kabellər çəkilib, 100 abunəçiyə yeni telefon çəkilişi proqnozlaşdırılıb və 85 abunəçiyə yeni telefon çəkilib. Navahı kəndinə 20 nömrə telefon və internet xətti qoşulub.

Ağsu Elektrik Şəbəkəsinin xidməti ərazisində əhalinin və rayon iqtisadiyyatının davamlı olaraq elektrik enerjisi ilə təmin edilməsi üçün zəruri olan bütün addımlar atılır. Qısa müddətdə 370 ədəd birfazalı qüsurlu sayğac yenisi ilə əvəz edilib, 211 ədəd yeni yaşayış evinə elektron sayğacı quraşdırılıb. Əhali və qeyri-əhali sektorlarına 35 ədəd üçfazalı elektron sayğacı quraşdırılıb.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı, eləcə də ARDNŞ və Ağsu Rayon Qaz İstismarı İdarəsinin Ağsu xidmət sahəsi qarşısında qoyduğu konkret tapşırıqların icrası məqsədilə tədbirlərin görülməsi davam edir. 2016-ci ilin yanvar-sentyabr aylarında istər rayonun qaz təsərrüfatının yenidən qurulması, istərsə də təbii qazın istehlakçılara çatdırılması zamanı yol verilən normadan artıq qaz itkilərinin qarşısının alınması və dəyərinin yığılması sahəsində bir sıra işlər görülüb. Rayonun hazırda qaz alan yaşayış məntəqələrində istehlakçıların təbii qazla təchizatında fasiləsizliyin təmin edilməsi məqsədilə start verilmiş əsaslı yenidənqurma işləri aparılır. Satılan qazın dəyərinin tam şəkildə yığılması və əvvəlki dövrlərdən yığılıb qalan debitor borcların ləğv edilməsi xidmət sahəsinin qarşısında duran prioritet məsələlərdən biridir. Bu istiqamətdə də konkret tədbirlər müəyyənləşdirilərək həyata keçirilir.

"Azərbaycan Respublikası regionlarinin 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqrami"na əsasən, Dünya Bankı və Azərbaycan Hökuməti ilə birgə maliyyələşdirilən "Milli Su Təchizatı və Kanalizasiya xidmətləri üzrə İkinci Layihə" çərçivəsində Ağsu şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması istiqamətində işlərin icrası cari ildə də gündəlikdədir.. Layihə çərçivəsində Ağsu rayonunda 116,7 kilometr su, 110 kilometr kanalizasiya şəbəkəsi tikilib, su şəbəkəsi üzərində 5500 ədəd, kanalizasiya şəbəkəsi üzərində isə 5300 ədəd evlərə birləşmə quraşdırılıb. Su-kanal idarəsi tərəfindən su anbarları yuyulub dezinfeksiya olunub, çöl ərazidə yerləşən siyirtmələrin hər birinə baxılıb, aparatlar texniki baxışdan keçirilib. Əhalinin içməli su təminatında problemin yaşanmaması üçün həm Külüllü-Ağsu 22 kilometrlik, həm də Quzey-Ağsu 25 kilometrlik magistral su xətti boyu texniki təhlükəsizlik tədbirləri görülüb. Təbii ki, kənd rayonlarında əhalinin içməli sudan başqa, suvarma suyu ilə təmin edilməsi də daim diqqətdə saxlanılmalıdır. Ağsuda təsərrüfatların suvarma suyu ilə təminatında ciddi problem yaşanmayıb və bu sahədə cari məsələlər vaxtlı-vaxtında öz həlini tapır.

Təhsil və səhiyyə sahələri barədə də bəzi məlumatları diqqətə çatdırsaq, pis olmaz.. Öyrəndik ki, Padar kənd ümumi orta məktəbinin binasında 51 min manatlıq əsaslı, Yenilik, Ağabəyli, Cəfərli, Hacıuşağı, Bəyimli, Suraxanı kənd ümumi orta məktəblərinin binasında ümumilikdə 156 min manatlıq cari təmir işləri aparılıb. 2016-cı ildə ali məktəbə qəbul üçün sənəd vermiş 245 məzunun 108 nəfəri qəbul imtahanlarında müsabiqə balından çox bal toplayıb. Onların 106 nəfəri (abituriyentlərin 43,27 faizi) tələbə adını qazanıb.

Bu il Ağsu Rayon Mərkəzi Xəstəxanasının yeni, müasir avadanlıqlarla təmin edilmiş binası əhalinin istifadəsinə verilmişdir. 26 min manat vəsait hesabına rayonun Xanbulaq kənd həkim məntəqəsində əsaslı təmir işləri aparılıb. Bütün dünyada geniş yayılan şəkərli diabet xəstəliyi üzrə rayonda, ümumilikdə, 1785 xəstə dövlət hesabına dərman və sarğı vasitələri ilə tam təmin edilir.

Ənvər müəllim dedi ki, ilin sonunadək rayon iqtisadiyyatının daha da yüksəldilməsi, əhalinin sosial problemlərinin həlli, özəl sektorun inkişafına kömək göstərilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, abadlıq-quruculuq işlərinin aparılması, sənaye, tikinti, nəqliyyat və rabitə müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində müvafiq tədbirlər həyata keçiriləcək. Rayon ərazisində avtomobil yollarının əsaslı təmiri və körpülərin yenidən qurulması istiqamətində tədbirlər davam etdiriləcək. İstehsal, xidmət və sosial-mədəni obyeklərin inşasına diqqət artırılacaq, əhalinin enerji daşıyıcıları ilə dayanıqlı təminatının ödənilməsi məqsədilə, həmçinin iri fermer təsərrüfatlarının yaradılması və əkinə yararlı torpaqların əkin dövriyyəsinə daxil edilməsi istiqamətində zəruri tədbirlər həyata keçiriləcəkdir.

... Yuxarıda qeyd etmişdim ki, Ağsu rayonu həm dağlardan, həm də aran – ovalıq ərazilərdən ibarətdir. Ancaq indi xatırladım ki, bu rayonun ərazisindəki ən uca dağ Sanqalan zirvəsidir. Onun da dəniz səviyyəsindən heç bir kilometr hündürlüyü yoxdur. Buna baxmayaraq, cəmi 929 metr hündürlüyü olan Sanqalana qar yağır, rayonun aran hissəsində isə camaat hələ sahədədir, pambıq yığır. Zirvə də ağappaqdır, tarla da. Üstəlik, rayonun adının ilk hecası da ağappaq olmasa da, ağdır. Bircə qalır bu gözəl təbiəti, dəyərli insanları olan diyara daha ağ günlər arzulamaq. Ağsu həmin günlərə, həqiqətən, layiqdir.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***